DÖVLƏT VERGİ XİDMƏTİ

# Elektron ticarətin vergiyə cəlb edilməsi mexanizmi formalaşdırılacaq

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən 01.01.2023-cü il tarixdən etibarən**

Rezidentlərə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsindən gəlir əldə edən internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin (daimi nümayəndəliklər istisna olmaqla) elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Nazirlər Kabineti tərəfindən təsdiq ediləcək Qaydalar əsasında həyata keçiriləcəkdir.

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

## Nə dəyişdi?

Beynəlxalq vergitutma mexanizmlərinin təkmilləşdirilməsi və beynəlxalq vergidən yayınma sxemləri ilə mübarizənin davam etdirilməsi, rəqəmsal iqtisadiyyatın vergiyə cəlb edilməsi mexanizminin təkmilləşdirilməsi, elektron ticarətin şəffaf və qanunamüvafiq şəkildə vergiyə cəlb edilməsi məqsədilə artıq rezidentlərə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsindən gəlir əldə edən, internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentlərin Azərbaycan Respublikasında uçota alınmasına başlanılacaqdır. Dəyişikliyə qədər belə bir mexanizm mövcud deyildi.

Yeni mexanizm əsasında müvafiq qaydada uçota alınan qeyri-rezident tərəfindən işlərin və xidmətlərin göstərilməsi ödəmə mənbəyində vergiyə cəlb edilməyəcək və bu əməliyyatlar üzrə yaranan vergi öhdəliyi qeyri-rezident şəxs tərəfindən Vergi Məcəlləsinə uyğun olaraq hesablanıb ödəniləcəkdir.

**Vergi ödəyicilərinin uçotu və qeydiyyatı ilə bağlı ətraflı məlumatla “Fiziki şəxslərin uçotu” və “Kommersiya qurumlarının dövlət qeydiyyatına alınması” adlı bukletlərdən tanış ola bilərsiniz.**

**BAKI — 2023**